

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 iyun 2023-cü il №46 (2758) https://mod.gov.az Qiyməti 30 qəpik


## Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun Azərbaycana səfəri

*Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov iyunun 17-də Azərbaycan Respublikasına səfərə gəlib.*

Zəngilan Beynəlxalq Hava Limanında Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovu Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

İyunun 17-də Azərbaycan Respublikasına səfərə gələn Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanova Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında görülən işlər barədə məlumat verilib.

Şərqi Zəngəzur iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında görülmüş işlər barədə təqdimatla çıxış edib.

Tatarıstan Respublikasının Rəisinə əvvəlcə Zəngilan Beynəlxalq Hava Limanı barədə məlumat verilib. Bildirilib ki, 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə hava limanının açılışı olub. Hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul etmək imkanına malikdir. Müasir tələblərə cavab verən beynəlxalq aeroportun terminalı saatda 200 sərnişinə xidmət göstərə bilər.

Qeyd olunub ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının ümumi ərazisi 2580 kvadratkilometrdir. Bu rayonlardan olan keçmiş məcburi köçkünlərin sayı 152 min 200 nəfərdir. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı prosesinə start verilib. Hazırda 86 ailədən ibarət 420 nəfər Zəngilanın Ağalı kəndinə qayıdıb və orada yaşayır. Ümumilikdə 2022-2026-cı illərdə Cəbrayıl, Qubadlı və Zəngilan rayon mərkəzlərinin, 5 qəsəbənin, 24 kəndin tikintisi və Böyük Qayıdışın birinci mərhələsində 41 min 277 nəfərin köçürülməsi planlaşdırılır.



Qeyd olunub ki, ərazilərin minalardan təmizlənməsi işi fasiləsiz davam etdirilir. İndiyədək Qubadlı rayonunda 80 min hektar (4,5 faiz), Cəbrayıl rayonunda 105 min hektar (18,3 faiz), Zəngilan rayonunda isə 73 min hektar (9,8 faiz) ərazi minalardan təmizlənib. Bu rayonlarda müvafiq olaraq 3278, 14803 və 2487 mina və partlamamış hərbi sursat aşkarlanıb.

Bildirilib ki, Şərqi Zəngəzur iqtisadi rayonunda ümumi uzunluğu 323 kilometr olan 5 avtomobil yolu, 111,4 kilometr uzunluğunda dəmir yolu inşa olunur. Bundan başqa, burada 4 yarımstansiya, ümumi gücü 42,6 MVt olan 5 Kiçik Su-Elektrik Stansiyası, 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyası yaradılır.

Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanova "Araz Vadisi İqtisadi zonası" Sənaye Parkında görülən işlər barədə də məlumat verildi. Bildirildi ki, 200 hektar ərazini əhatə edən Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq 5 sahibkarlıq subyekti Parkın rezidenti kimi, 1 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb. Bu layihələrin reallaşması nəticəsində, ümumilikdə Sənaye Parkına 32,7 milyon manat investisiya yatırılacaq.

* * *

İyunun 17-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Zəngilan şəhərində görülən işlərlə tanış olub.

Əvvəlcə Rüstəm Minnixanova Zəngilan şəhərindəki Konqres Mərkəzinin tikintisi ilə bağlı məlumat verilib.

Bildirilib ki, Konqres Mərkəzinin layihələndirilən ərazisi 2,2 hektardır. Burada Mərkəzin binası ilə yanaşı, restoran, pavilyon da inşa olunur. Konqres Mərkəzi 605 yerlikdir. Buradakı restoranın isə 240 yerlik olması nəzərdə tutulub. Bu ərazidə müvafiq yaşıllıq zonaları salınacaq, avtomobillər üçün yerüstü parklanma sahəsi yaradılacaq.

Qeyd olunub ki, ekoloji memarlıq konsepsiyasına əsasən Mərkəzin damı yaşıllıq zolağı və günəş panelləri ilə əhatə ediləcək. Konqres Mərkəzində beynəlxalq və ölkə səviyyəli müxtəlif tədbirlər keçiriləcək.

Sonra Tatarıstan Respublikasının Rəisi Zəngilan məscidinin tikintisi ilə tanış olub.

Bildirilib ki, Zəngilan məscidi "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunur. Ermənistanın torpaqlarımızı işğal altında saxladığı otuz il ərzində digər ərazilərimizdə olduğu kimi, Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz vandalizmə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən də tövlə kimi istifadə olunub. Rayonun işğaldan azad edilməsi nəticəsində buradakı tarixi, memarlıq abidələri də erməni əsarətindən qurtulub.

Otuz ilə yaxın işğal dövründə dağıdılan, təhqir olunan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesində Heydər Əliyev Fondu müstəsna xidmət göstərir. Qarabağdakı dini abidələrin, məscidlərin bərpası işləri sürətlə davam etdirilir.

Məlumat verilib ki, Zəngilan məscidinin bərpasının təməl daşı dövlətimizin başçısı İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın iştirakı ilə 2021-ci il aprelin 26-da qoyulub, bərpa işləri fasiləsiz həyata keçirilir.

Tatarıstan Respublikasının Rəisi Zəngilan şəhərini gəzərək ermənilər tərəfindən törədilmiş dağıntılarla tanış olub.

* * *

İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Zəngilan rayonunun Ağalı kəndində olublar.

Prezident İlham Əliyev və Rüstəm Minnixanov elektromobillərlə Ağalı kəndini gəziblər.

Qeyd edək ki, bu günədək Böyük Qayıdış çərçivəsində Zəngilanın Ağalı kəndinə ümumilikdə 86 ailə - 420 nəfər köçürülüb. Ağalıda məskunlaşan sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunublar.

Müvafiq qurumlar tərəfindən sakinlər peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediliblər. Onlar müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və sair çalışırlar. Köçürülmüş əhali üçün bütün infrastruktur yaradılıb.

Prezident İlham Əliyev və Rüstəm Minnixanov Ağalı sakinləri ilə görüşüb söhbət ediblər.

Prezident **İlham Əliyev**: Salaməleyküm.

**Sakinlər**: Salaməleyküm, cənab Prezident, xoş gəlmisiniz.

**Rüstəm Minnixanov**: Salaməleyküm.

**Sakinlər**: Xoş gəlmisiniz, cənab Prezident.

**Qadın sakin**: Həmişə Siz gələsiniz, xoş gəlmisiniz.

Prezident **İlham Əliyev**: Necəsiniz? Necə yaşayırsınız?

**Sakinlər**: Sağ olun, cənab Prezident, Allah Sizə ömür versin. Biz yaxşıyıq, Sizin sayənizdə hər şey yaxşıdır, əladır. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə kömək etsin. Biz Sizin sayənizdə burada yaşayırıq. Allah Sizə cansağlığı versin.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Sakinlər**: Sağ olun, cənab Prezident. Allah Sizi qorusun!

Prezident **İlham Əliyev**: Salam, necəsən? Qızım, sən də gəl.

**Qadın**: Salam, xoş gəlmisiniz. Gəlin, uşaqlar, şəkil çəkdirək.

Prezident **İlham Əliyev**: Necə yaşayırsınız burada?

**Qadın**: Mən Bakıdan gəlmişəm.

Prezident **İlham Əliyev**: Qonaq gəlmisiniz?

**Qadın**: Bəli, qonaq gəlmişik.

**Minnixanov** (balaca qıza): Adın nədir?

**Qız**: Xədicə.

Prezident **İlham Əliyev**: Bəs sənin adın nədir?

**Oğlan**: Yusif.

Prezident **İlham Əliyev**: Nəvələrinizdir. Sənin adın nədir?

**Qız**: Mələk.

Prezident **İlham Əliyev**: Necəsən?

**Qız**: Yaxşıyam.

**Qadın sakin**: Cənab Prezident, Ağalıya xoş gəlmisiniz. Allah Sizə kömək olsun.

**Digər qadın**: Cənab Prezident, bu gün bu qızın ad günüdür, onunla bir şəkil çəkdirərsiniz?

Prezident **İlham Əliyev**: Ad günüdür? Təbrik edirəm.

**Qadın**: Allah Sizin canınızı sağ etsin ki, bizə bu günləri qismət etdiniz.

**Digər Qadın**: Cənab Prezident, Sizə dərin təşəkkürümüzü bildiririk. Sizinlə dəfələrlə görüşmüşük, yəqin tanımış olarsınız.

Prezident **İlham Əliyev**: Çox sağ olun. Bəli, bəli.

**Qadın**: Ağalıya xoş gəlmisiniz, həmişə Siz gələsiniz. Siz gələndə biz çox sevinirik. Görürsünüz, Sizi uşaqlar da nə qədər çox istəyirlər.

**Sakinlər**. Allah Sizi var eləsin. Sizinlə fəxr edirik. Bizim Prezidentimiz dünya lideridir.

**Qadın**: İnşallah, həmişə yolunuz açıq, işiniz uğurlu olsun.

* * *

Söhbət zamanı xatirə şəkilləri çəkdirilib.

**(Ardı 2-ci səhifədə)**

# Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun Azərbaycana səfəri



(Əvvəli 1-ci səhifədə)

İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin açılışında iştirak ediblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov görülən işlər barədə məlumat verib.

Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Sənaye Parkının logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. Park yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir ki, bu da onlardan həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq.



Bildirilib ki, bu Sənaye Parkı 200 hektar ərazini əhatə edir. Parkın prioritet istiqamətləri kimi, logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin və sairin təşkili müəyyənləşdirilib. Sənaye Parkında quruculuq işləri mərhələli şəkildə həyata keçirilir. Parkın ərazisi tam olaraq minalardan və hərbi sursatlardan təmizlənib. Sənaye Parkında fəaliyyət göstərəcək işçilərin və sahibkarların rahatlığının təmin edilməsi məqsədilə mobil şəhərcik salınıb.

Ölkəmizdəki digər mövcud sənaye parklarında olduğu kimi, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, Sənaye Parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s.) təmin edilir. Eyni zamanda, rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar. Bunlarla yanaşı, İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən rezidentlərə hər cür təşkilati dəstək göstərilir.



Prezident İlham Əliyev və Rəis Rüstəm Minnixanov "Avto Lizinq Azərbaycan" MMC-nin açılışını bildirən rəmzi lenti kəsiblər.

Məlumat verilib ki, Rusiya və Azərbaycan birgə müəssisəsi olan "Avto Lizinq Azərbaycan" MMC tərəfindən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının 3 hektar ərazisində texniki servis mərkəzi yaradılıb. Mərkəz yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına xidmət göstərilməsi sahəsində hab rolunu oynayacaq. Mərkəzdə işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan 1500-dək avtomobilə, həmçinin yüklərin daşınmasını həyata keçirəcək tranzit avtomobillərə və digər texnikalara peşəkar xidmət göstəriləcək.

Mərkəzdə texniki xidmət bloku, təmir emalatxanası, gözləmə zalı, tədris otağı, anbar, portal tipli avtoyuma məntəqəsi və xidməti otaqlar yaradılıb. Texniki təmir emalatxanasında mühərriklərin və digər aqreqatların, elektrik avadanlıqlarının, pnevmatik və hidravlik qurğuların təmiri sahələri, daxili yanma mühərriklərinin yuyulması məntəqəsi fəaliyyət göstərəcək.

Burada, həmçinin mehmanxana, ehtiyat hissələri mağazası və digər xidmət sahələri istifadəyə verilib. Bununla yanaşı, Mərkəzdə mobil təmir və texniki servis briqadaları da fəaliyyət göstərəcək ki, bu da işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan bütün texnikalara yerində xidmət göstərməyə imkan yaradacaq.

Ümumi investisiya həcmi 10,2 milyon manat olan müəssisənin inşasına artıq 9,4 milyon manatdan çox investisiya yatırılıb. Müəssisənin fəaliyyətə başlaması məşğulluğun təmin edilməsinə də töhfə verəcək.

* * *

İyunun 17-də Zəngilan rayonunun Ağalı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olub.

Tatarıstan Respublikasının Rəisini salamlayan Prezident **İlham Əliyev** deyib:

- Hörmətli Rüstəm Nurqaliyeviç, bir daha xoş gəlmisiniz. Mən yeni görüşümüzə çox şadam. Əlbəttə, bu gün birgə Mərkəzin açılışı əlamətdar hadisədir. Lakin daha vacibi bizim sizinlə ünsiyyətimizdir. Mən bizim həm Kazanda, həm də Bakıda görüşlərimizi məmnuniyyətlə yada salıram. Şadam ki, Sizinlə müəyyən etdiyimiz hər şey, o cümlədən "Araz Vadisi" Sənaye Parkının birinci obyekti, - bu, qardaş Tatarıstanın obyektidir, - icra olunur. Yəni, biz ərazilərin bərpası işinə belə münasibətə görə çox minnətdarıq. Əlbəttə ki, biz müəyyənləşdirdiyimiz əməkdaşlıq proqramının tam həyata keçəcəyinə ümidvarıq.

Biz burada məsləhətləşmələrə gələn və sonrakı planlar üzrə qərar qəbul edən nümayəndə heyəti ilə artıq fikir mübadiləsi aparmışıq. Əlbəttə, sənaye kooperasiyasında, energetikada, neft-qaz sahəsində perspektivlər böyükdür. Təbii ki, mədəni əməkdaşlıq da çox vacib sahədir. Tatarıstan və Azərbaycan xalqları əsrlər boyu qardaşlıq, dostluq münasibətləri saxlayırlar. Əlbəttə ki, bizim aramızdakı münasibətlər Rusiya və Azərbaycan arasında dostluq, müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi işinə böyük töhfədir və bizim dövlətlərarası səviyyədə planlaşdırdığımız, həyata keçirdiyimiz hər bir məsələ kimi çox səmərəli, dinamik şəkildə inkişaf edir.



Beləliklə, bir daha xoş gəlmisiniz. Sizə burada - həm Cəbrayılda və Zəngilanda, həm də sabah Bakıda xoş səfər arzulayıram.

* * *

Tatarıstan Respublikasının Rəisi **Rüstəm Minnixanov** deyib:

- Hörmətli İlham Heydər oğlu, hər şeydən əvvəl gözəl ölkədə olmaq imkanına, Sizin dəvətinizə görə təşəkkür etmək və əlbəttə, Sizə - Azərbaycan Prezidentinə və bizim Prezidentə minnətdarlığımı bildirmək istərdim. Biz ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsinə regional səviyyədə də ciddi töhfə veririk.

Tatarlara və azərbaycanlılara gəlincə, biz dil baxımından da tarixən çox yaxınıq.



Siz bu qəsəbədəki vətəndaşlarınızla danışırsınız və mən praktik olaraq hər şeyi başa düşürəm. Əlbəttə, bu gün biz tikintisi davam edən məsciddə olduq. Bütün bunlar bizə çox yaxındır və bütün bunlar bizi çox yaxınlaşdırır. Bizim birinci Prezidentimiz Mintimer Şaymiyev, onun və Tatarıstanın yaxın dostu Heydər Əliyev münasibətlərimizin möhkəm təməlini qoyublar.

* * *

Ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə iyunun 17-də Zəngilan Beynəlxalq Hava Limanından Bakıya yola düşüblər.

* * *

Azərbaycan Respublikasında səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov iyunun 18-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə əklil qoyub.

Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarları üstünə də gül dəstələri qoyulub.

* * *

Azərbaycan Respublikasında səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov iyunun 18-də Şəhidlər xiyabanını ziyarət edib.

Tatarıstanın Rəisi Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb.

Tatarıstanın Rəisi "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

**AZƏRTAC-ın materialları əsasında**

# HHQ-də "Zabit ixtisas kursu"nun ilk buraxılış mərasimi keçirilib





Cari ilin hazırlıq planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin (HHQ) Təlim və Tədris Mərkəzində "Zabit ixtisas kursu"nun ilk buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Mərasimdə məzunlara HHQ komandanının təbriki çatdırılıb. Çıxış edənlər hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında bu cür kursların əhəmiyyətindən danışıb, zabitlərə gələcək xidmətlərində uğurlar arzulayıblar.

Sonra kursu müvəffəqiyyətlə bitirənlərə sertifikatlar təqdim olunub, kurs birinciləri tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Sonda şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub, xatirə şəkli çəkdirilib.

# "Anatolian Phoenix-2023" beynəlxalq təlimi başa çatıb



Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anatolian Phoenix-2023" ("Anadolu Ankası-2023") beynəlxalq axtarış-xilasetmə təlimi başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bağlanış mərasimində çıxış edənlər beynəlxalq təlimdə icra olunan fəaliyyətlərin təhlili barədə danışıblar.

Qeyd olunub ki, təlimdə qarşıya qoyulan tapşırıqlar iştirakçı dövlətlərin şəxsi heyəti tərəfindən qarşılıqlı əlaqədə müvəffəqiyyətlə icra edilib.

Tədbirin sonunda iştirakçı heyətlər tərəfindən qarşılıqlı hədiyyələr təqdim edilib, xatirə şəkilləri çəkdirilib.

Qeyd edək ki, "Anatolian Phoenix-2023" ("Anadolu Ankası-2023") beynəlxalq axtarış-xilasetmə təlimində ölkəmizin Hərbi Hava Qüvvələrinin pilotları, texniki heyəti və aviasiya vasitələri ilə yanaşı, Hərbi Dəniz Qüvvələrinin və Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçuları təmsil ediblər.

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

İyunun 17-si saat 14:30-dan 14:55-dək Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən Azərbaycan Ordusunun Kəlbəcər və Laçın rayonları istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan intensiv atəşə tutub.

Ordumuzun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Bundan başqa, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri mülki geyimdə Ağdam rayonu istiqamətində yerləşən mövqelərimizin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

* * *

İyunun 19-u saat 13:35 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən cavab tədbirləri görülüb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Hərbi vəzifəlilərin təlim toplanışı başa çatıb





2023-cü ilin hazırlıq planına əsasən, ehtiyatda olan bir qrup hərbi vəzifəlilərin cəlb edilməsi ilə "N" hərbi hissəsində keçirilən təlim toplanışı başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq, hərbi vəzifəlilər müxtəlif çaplı atıcı silahlardan və qumbaraatanlardan praktiki atış çalışmalarını yerinə yetiriblər.

Təlim toplanışı zamanı, həmçinin hərbi vəzifəlilərlə sıra hazırlığı, rabitə hazırlığı məşğələləri keçirilib, onlara silahların taktiki-texniki xüsusiyyətləri, natamam sökülüb-yığılma və düzgün istifadə qaydaları öyrədilib, eləcə də ilkin tibbi yardım göstərilərək yaralıların təxliyə edilməsi üsulları məşq etdirilib.

Qeyd edək ki, ehtiyatda olan hərbi vəzifəlilərin döyüş vərdişlərinin təkmilləşdirilməsi, bilik və bacarıqlarının artırılması məqsədilə keçirilən təlim toplanışında qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

# Raket və artilleriya bölmələrində atəş tapşırıqları icra olunub

*2023-cü ilin hazırlıq planına uyğun olaraq, Raket və Artilleriya Qoşunlarının bölmələrində atəş tapşırıqları icra edilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılan bölmələr atəş mövqelərinin tutulması, qurğuların döyüş tətbiqinə hazırlanması və icrası üzrə tapşırıqları yerinə yetiriblər.



Təlimdə bölmələr reaktiv yaylım atəşi sistemlərindən döyüş atışları icra ediblər.

Təlimin keçirilməsində əsas məqsəd hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, raket və artilleriya bölmələrinin idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsi, döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması və digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təşkilidir.

# ANAMA: Ötən həftə 156 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, iyunun 12-dən 17-dək Tərtər, Ağdam, Xocavənd, Laçın, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 12 mina, tank əleyhinə 18 mina və 151 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 156 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Azad edilmiş ərazilərdəki hərbi tibb müəssisələrinə media-tur təşkil olundu

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu olan Ulu Öndər Heydər Əliyev dövlətçiliyimizin siyasi, iqtisadi əsaslarını yaradan, müstəqil xalq və güclü dövlətə sahib olmaq arzumuzu reallığa çevirən müdrik şəxsiyyət kimi tarixdə silinməz iz qoyub. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyəti dövründə ölkəmizin möhkəmlənməsi və inkişafı üçün bir çox işlər görülüb. Uzaqgörən və dahi lider respublikanın çiçəklənməsi uğrunda bütün sahələrdə məqsədyönlü islahatlar aparıb. Ulu Öndərin tapşırıqları ilə ölkədaxilində aparılan islahatlar səhiyyə sistemini də əhatə edib. Onun rəhbərliyi ilə səhiyyə strukturunun hüquqi-normativ bazası yaradılaraq təkmilləşdirildi, bir sıra qanunlar işlənib hazırlandı. Ulu Öndərin Sərəncamı ilə 1998-ci il martın 13-də "Səhiyyə sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının" yaradılması Azərbaycan Respublikasında səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi və əhalinin sağlamlığının qorunması məqsədilə atılan addımlardan biri oldu. 17 İyun - tibb işçilərinin peşə bayramı gününün təsis edilməsi də məhz dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikasının sosial inkişafı sahəsində tibb işçilərinin böyük xidmətlərini və Azərbaycan Xalq Cümhuriyyətinin ilk Səhiyyə Nazirliyinin 1918-ci il iyunun 17-də yaradılmasını nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin 4 iyun 2001-ci il tarixli Sərəncamına əsasən ölkəmizdə hər il iyunun 17-si Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.





17 İyun - Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə Müdafiə Nazirliyinin təşkilatçılığı ilə azad edilmiş ərazilərdə yerləşən hərbi tibb müəssisələrinə media-tur təşkil edildi. Media nümayəndələri bu ərazilərdəki tibb müəssisələrində yaradılan şəraitlə tanış oldular və tibbi personaldan, eləcə də müalicə olunan hərbçilərdən müsahibələr götürdülər.

Azad edilmiş ərazilərdə xidmət edən hərbi qulluqçuların sağlamlığının qorunması məqsədilə yaradılan hərbi hospitalların müasir tələblərə tam cavab verməsinin biz də şahidi olduq. Hərbi həkimlər, feldşerlər və tibb bacıları ilə söhbətləşdik.

Media-tur zamanı **tibb xidməti polkovniki İlqar Əliyev** hərbi tibb müəssisəsində Xocavənd rayonu ərazisində salınan hospitalda yaradılan şərait barədə geniş məlumat verdi və tibb işçilərini təbrik etdi. "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə azad edilən ərazilərimizdə aparılan yenidənqurma və bərpa işləri çərçivəsində hərbi qulluqçuların sağlamlığının diqqət mərkəzində saxlanılmasının təmin edilməsi üçün yeni hospitallar tikilərək hərbçilərin ixtiyarına verilib. Müasir standartlara tam cavab verən hospitalımız yeni avadanlıqlarla təchiz olunub. Hospitalın yeni texnoloji avadanlıqlarla təchiz olunması xəstələrə düzgün diaqnoz qoyulmasına və qısa müddət ərzində müalicə edilməsinə imkan verir. İstənilən xəstəliyə, xəsarətə, yaralanmaya lazımi yardım göstərmək üçün həm texniki şəraitimizi, həm də Vətən müharibəsi zamanı döyüş təcrübəsi qazanmış peşəkar tibbi personalımız mövcuddur. Hərbi həkim olaraq mən də 17 İyun - Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə bütün həmkarlarımı təbrik edirəm. 44 günlük Vətən müharibəsi dövründə ölkəmizin tibb işçiləri öz vəzifə borclarını ləyaqətlə yerinə yetirərək həm növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə, həm də döyüş meydanında yaralanan əsgərlərin müalicə olunaraq həyata qaytarılmasında böyük fədakarlıq nümunəsi göstəriblər. Ömürlərə ömür calamaq, xəstələrə şəfa vermək, xəstə yaxınlarına ümid yeri olmaq xeyirxah olduğu qədər gərəkli və müqəddəs işdir. Bu müqəddəs yolda hər bir tibb işçisinə möhkəm cansağlığı, işlərində uğurlar arzulayıram".

Terapiya bölməsinin həkimi **tibb xidməti baş leytenantı Nurəddin Həsənov** hərbçi həkim olaraq Vətən qarşısındakı vəzifə borclarından danışdı: "Biz həkimlərin vəzifəsi hərbi qulluqçularımızın sağlamlığının keşiyində dayanmaqdır. Düşünürəm ki, bu borcu layiqincə yerinə yetiririk. Müraciət edən xəstələrin hamısını dinləyir, onlara dəqiq diaqnoz qoyur, sonra müalicəyə başlayırıq. Hospitalımızın müasir tibbi avadanlıqlarla təchiz edilməsi, müraciət edən xəstələri tez bir zamanda sağlamlığına qovuşdurmağımıza kömək edir. Müalicə etdiyim hansısa xəstənin sağalaraq xidməti yerinə qayıtmasını görmək məni sevindirir. Həm həkim, həm də hərbçi olaraq iki müqəddəs peşənin sahibi kimi Vətənimə, dövlətimə, xalqıma xidmət etdiyim üçün fərəhlənirəm".

Qəbul otağında baş tibb bacısı **baş çavuş Arzu Məmmədovadan** öyrəndik ki, on səkkiz ildən artıqdır orduda xidmət edir. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlər zamanı verilən tapşırıqları uğurla icra edərək vəzifə borclarını layiqincə yerinə yetirdiyi üçün "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunub.

"İşğaldan azad edilmiş ərazilərimizdə xidmət etdiyim üçün qürurluyam", - deyən Arzu Məmmədova söhbətə başladı: "Hərbi formanı geyinərək Vətən torpaqlarını müdafiə edən igid oğullarımızla çiyin-çiyinə xidmət etmək, onların sağlamlığının keşiyində durmaq seçdiyim peşə ilə qürur duymağım üçün başlıca səbəbdir. Hər bir peşənin öz çətinliyi, məsuliyyəti var. İşimiz hər nə qədər çətin olsa da, hərbçilərimizin hansısa xəstəlikdən şəfa tapmasının şahidi olmaq bizlərə bütün çətinlikləri unutdurur. Hospitalımızda əlverişli tibb xidmətinin göstərilməsi üçün müasir şərait və imkanlarımız mövcuddur. Savadlı həkimlərimiz tərəfindən xəstələr müayinə olunur, onların təyin etdiyi müalicənin icrasını biz tibb bacıları təmin edirik. Vətəni müdafiə edən əsgərlərin sağlamlığı üçün əlimizdən gələni əsirgəmirik. Burada əsgərlər qısa vaxtda müayinə və müalicə olunaraq bölmələrinə qayıdırlar", - baş çavuş bildirdi.

* * *

Kəlbəcərdə tikilən hərbi hospitalla ilkin tanışlıq zamanı öyrəndik ki, 3,6 hektar ərazidə salınan hərbi hospital müasir standartlara cavab verməkdədir, bütün tibbi cihaz və avadanlıqlar tam rəqəmsaldır. Səhiyyə ocağının ərazisində 2 müalicə korpusu, qərargah binası, camaşırxana-qazanxana və yeməkxanaların mövcudluğu haqqında da məlumat verildi. **Tibb xidməti polkovniki Hüseyn Əliyev** bildirdi ki, müalicə korpuslarında sülh dövrü üçün 180 çarpayılıq yerləşdirilmə nəzərdə tutulsa da, döyüş vəziyyətinə gətirildiyində bu rəqəmin 300-dək artırılması mümkündür. Hospitalın daxilində poliklinika, terapiya, cərrahiyyə, anesteziologiya-reanimasiya, yoluxucu xəstəliklər və dəri xəstəlikləri bölmələri, müvafiq olaraq, korpuslara bölünmüş şəkildə fəaliyyət göstərir.

Söhbət zamanı tibb xidməti polkovniki Hüseyn Əliyev səhiyyənin cəmiyyətlə sıx bağlılığından danışdı. "Aydındır ki, ölkəmizin sosial həyatını təşkil edən ən vacib amillərdən biri sağlamlıqdır. Güclü səhiyyə sisteminin yaradılması sağlam ictimai mühitin formalaşmasında böyük rol oynayır. Azərbaycan Respublikasının



Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də apardığı uğurlu islahatların nəticəsidir ki, dövlətin iqtisadi potensialı gündən-günə artırılır. Ölkədə səhiyyənin inkişafı sürətlə davam edir və əhalinin sağlamlığının təminatı məsələsi dünya standartlarına cavab verir".

- Hərbi hospital bütün kommunikasiya sistemləri ilə də təchiz olunub. Hazırda hospitalda bütün müasir standartlara cavab verən poliklinika da fəaliyyət göstərir. Poliklinika bölməsində hərbi qulluqçularımızın sağlamlığının təmin edilməsi məqsədi ilə müasir avadanlıqlar və tibbi təchizatla təmin olunan oftalmoloq, otolarinqoloq, kardioloq, stomatoloq, nevroloq, fizioterapevt və digər ixtisaslar üzrə kabinetlər fəaliyyət göstərir. Bundan başqa, burada daimi tibbi oksigen təminatı üçün stansiya, bioloji təmizləmə qurğusu, ehtiyat generator, cərrahi əməliyyatların fasiləsizliyi üçün texniki avadanlıqlar, mərkəzləşdirilmiş su, istilik və digər ehtiyatlar yaradılıb. Həmçinin hospitalımızda geniş avtomobil parkı da fəaliyyət göstərir. Reanimobillərlə yanaşı, yerləşdiyimiz coğrafi relyefi nəzərə almaqla, yolsuzluq şəraitində xəstələrin təxliyəsi üçün nəzərdə tutulmuş ambulanslar və çöl şəraitində tibbi xidmətin göstərilməsi üçün digər avtomobillər də daimi fəaliyyətə hazır vəziyyətdədir", - zabit Hüseyn Əliyev bildirdi.

Cərrahiyyə bölməsinin rəisi **tibb xidməti polkovnik-leytenantı Elxan Edilxanov** ana Vətənin müdafiəsində dayanan cəsur oğullarımıza tibbi yardım göstərməyi özünə mənəvi borc bildiyini vurğuladı. "Həkim peşəsinə yiyələndiyim gündən hər zaman görürdüm ki, ölkəmizdə səhiyyə sistemi yüksək səviyyədədir. Təbii ki, ümumdünya səhiyyəsi durmadan inkişaf etdiyi üçün Azərbaycanda da bu inkişaf təxirəsalınmaz rol oynayır. Sözsüz ki, əvvəlki illərlə müqayisədə bu gün tibbi təminatımız ən müasir və yüksək səviyyəyə gətirilib. Həmçinin hərbi tibb sahəsi də. Dövlət başçısının və Müdafiə Nazirliyinin rəhbərliyinin bütün sahələrdə olduğu kimi, hərbi səhiyyə strukturuna güclü dəstək göstərməsi vacib şərtdir. Bütün bu amillər orduda tibb xidmətinin lazımı təşkilinin nəticəsidir. Yaradılan əlverişli sosial-məişət şəraiti nəticəsində bu gün ordumuzda xəstəliklərin sayı minimum göstəricilərə çatıb.

Hərbi həkim və azərbaycanlı olaraq Vətənimizin suverenliyini və millətimizin sivil həyatını qoruyan əsgərlərimizə tibbi yardım göstərməyimlə fəxr edirəm. Bunun üçün bütün gücümüzü səfərbər edirik".

Terapiya bölməsinin rəisi **tibb xidməti kapitanı Elmidar Quluzadə** isə Vətən müharibəsində hərbi həkimlərimizin göstərdiyi fədakarlıqdan danışdı. "44 günlük haqq savaşımız dövründə hərbi həkimlərimizin fəaliyyəti də Zəfər tarixində öz layiqli yerini tutur. Hər birimiz işimizə tam məsuliyyətlə yanaşırıq. Ali Baş Komandan cənab İlham Əliyev Vətən müharibəsindən sonra çıxışlarının birində bu barədə demişdi: "Doğrudan da, həkimlər gecə-gündüz yorulmadan, o ağır şəraitdə, çətin şəraitdə öz həyatını risk altına ataraq yaralılara qulluq edirdilər. Şəhidlərimizin sayının o qədər də çox olmamasının səbəblərindən biri də məhz həkimlərdir".

**(Ardı 5-ci səhifədə)**

# "Unudulmaz qəhrəman"



*Vətən uğrunda qəhrəmancasına döyüşmüş, ərazi bütövlüyümüz naminə canlarını fəda etmiş qəhrəman oğullarımızın əziz xatirəsi sonsuzadək ürəklərdə yaşayacaq. Xalqımızın yaddaşında igidliyi, fədakarlığı ilə əbədilik qazanmış Vətən oğulları həmişə ölkəmizdə hörmət və qürur hissi ilə xatırlanacaqlar.*

Azərbaycan Hərb Tarixi Muzeyində Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin anadan olmasının 70 illiyi münasibətilə "Unudulmaz qəhrəman" adlı anım tədbiri keçirildi.

Anım tədbirində Müdafiə Nazirliyinin idarə və təşkilatlarının, ictimaiyyət nümayəndələri, şəhidlərin ailə üzvləri, döyüş yoldaşları iştirak etdilər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbiri açıq elan edən Hərb Tarixi Muzeyinin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə "Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin həyat və döyüş yolu" adlı məruzə ilə çıxış edərək bildirdi ki, Əlif Hacıyev 1953-cü il iyunun 24-də Xocalıda dünyaya göz açıb. Onun keçdiyi həyat və döyüş yolu ilə tanış olanda qürur duymamaq mümkün deyil. Bütün həyatını Vətəninə xidmət etməklə keçirən bu igid əsl qəhrəmanlıq nümunəsidir.

Muzey rəisi Milli Qəhrəmanın keçdiyi şərəfli döyüş yolu barədə də geniş məlumat verdi: "Əlif Hacıyev 1974-1984-cü illərdə daxili işlər orqanlarında müxtəlif vəzifələrdə xidmət etmişdi. Sonralar təhsilini Frunze adına Milis Məktəbində və Daxili İşlər Nazirliyinin Akademiyasında davam etdirmişdi.

Əlif Xankəndidə çalışarkən uzun müddət fəaliyyət göstərən gizli millətçi mərkəzi ifşa etməyə çalışır. Buna görə də erməni millətçiləri onu saxta ittihamlarla günahlandıraraq, 10 il həbs cəzasına məhkum edirlər. O, 1989-cu il fevralın 20-də əfv olunaraq azadlığa çıxır.

Vətəninə böyük məhəbbətlə bağlı olan Əlif Hacıyev həbsxanadan buraxıldıqdan sonra doğma yurdu Xocalıya qayıdır. O, qısa müddətdə Xocalı təyyarə limanı xətdaxili işlər bölməsinə rəis təyin edilir. Eyni zamanda, Xocalı aeroportunun komendantı vəzifəsini də yerinə yetirir. Cəsarətli fəaliyyətinə görə 1991-ci ilin dekabrında ona mayor rütbəsi verilir.

Bu o vaxtlar idi ki, artıq Dağlıq Qarabağda ermənilərin özbaşınalıqları daha da böyük faciələrə səbəb olmuşdu. Ölkədə nizami ordunun olmaması bu faciələrin qarşısının alınmasını çətinləşdirirdi".

Çıxışına davam edən muzey rəisi Ə.Qənizadə qeyd etdi ki, Xocalı soyqırımından əvvəl hava limanının strateji əhəmiyyətini başa düşən ermənilər aeroportu ələ keçirməyə cəhd edirdilər. "Bunun üçün Xankəndidən 100-ə yaxın erməni döyüşçü Xocalıya gəlir. Ermənilər hava limanını mühasirəyə alır və axşam saat 10-a kimi oranı boşaltmaq üçün vaxt verirlər. O zaman aeroportda cəmi 30-a yaxın əməkdaş var idi. Əlif Hacıyevin idarəçiliyilə döyüşçülərimiz hava limanını düşmənə təslim etmirlər.

Ancaq Xocalı hər tərəfdən mühasirəyə alınmışdı. Bu təhlükəni Əlif çoxdan duymuşdu. O, hər gün vəziyyətlə bağlı paytaxta məlumat verir, təcili tədbir görülməsini tələb edirdi. Kömək isə gəlmirdi. Nəhayət, Əlifin qorxduğu dəhşətli hadisələr baş verdi. Erməni-rus hərbi birləşmələri tarixdə misli görünməyən cinayətə əl atdılar.






Məlumdur ki, 31 il öncə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum edirlər. Əvvəlcə şəhər dörd tərəfdən erməni qoşunları tərəfindən əhatə olunur, sonra isə Xocalıya artilleriya və ağır hərbi texnikadan güclü və amansız atəş açılır, az bir vaxt ərzində şəhərdə yanğın baş verir, şəhər tamamilə alova bürünür. Şəhərin müdafiəçiləri və yerli əhali buranı tərk etməyə məcbur olurlar. Bir gecənin içərisində qədim Xocalı yerlə-yeksan edilərək yandırılır. Soyqırımı zamanı 613 nəfər öldürülür".

Muzey rəisi onu da vurğuladı ki, Əlif Hacıyev və onun dəstəsi səhər saat 5-ə qədər düşmənə ciddi müqavimət göstərirlər. Amma döyüşlər qeyri-bərabər qüvvələr arasında gedir. Ağır döyüşlərdə Əlif Hacıyev də düşmən gülləsinə tuş gələrək şəhid olur. Ölümündən bir neçə gün sonra Əlifin tabutunu Bakıya gətirib Şəhidlər xiyabanında dəfn edirlər.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə Əlif Lətif oğlu Hacıyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi. Bu gün Bakı şəhərindəki küçələrdən biri ölməz qəhrəmanın adını daşıyır.

Tədbirdə çıxış edən Elmar Hüseynov, Ədalət Mustafayev 39 yaşında şəhidlik məqamına ucalan qəhrəmanın şərəfli ömür və döyüş yolundan, Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı qələbədən, bu qələbənin bütün şəhidlərimizin ruhuna təsəlli olduğundan danışdılar.

Tədbir iştirakçılarına Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin şərəfli ömür və döyüş yolundan bəhs edən "Xocalının Əlifi" adlı sənədli film nümayiş olundu.

Tədbirdə şəhidin bacısı Şükufə xanım çıxış edərək, Əliflə bağlı xatirələrini bölüşdü. Onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərin xatirəsinin daima uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.

Sonda Abbas Mirzə Şərifzadə adına Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərliyi tərənnüm edən musiqilər səsləndirildi.

**Kapitan
Günay TAĞIYEVA
"Azərbaycan Ordusu"**

# Azad edilmiş ərazilərdəki hərbi tibb müəssisələrinə media-tur təşkil olundu

**(Əvvəli 4-cü səhifədə)**

Bu sözlər bizə böyük qürur yaşadır. Təbii ki, yaralıların döyüş meydanından təxliyə edilməsi ən əsas şərt idi. Onlar sanitar maşınlarla ən yaxın tibb mərkəzlərinə gətirilir, orada lazımi müalicə alırdılar. Nəticədə ərazi bütövlüyümüz ən minimal itkilərlə bərpa olundu. Bununla da Müzəffər Ali Baş Komandanın və rəşadətli Azərbaycan Ordusunun gücü bütün dünyaya nümayiş olundu. Bu gün artıq işğaldan azad olunan ərazilərdə hərbi hospitallar tikilir, istifadəyə verilir. Xidmət etdiyim hərbi hospital da bunlardan biridir", - deyərək tibb xidməti kapitanı söhbətini sonlandırdı.

Qəbul-çeşidləmə bölməsinin baş ordinatoru tibb xidməti kapitanı Həsrət Hüseynov ilə söhbət əsnasında öyrəndik ki, hospitalda iki əməliyyat otağı fəaliyyət göstərir. "Müalicə korpuslarında hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmətin göstərilməsi zəruridir, bunun üçün lazımi bütün şərait yaradılıb. Müraciət edən hərbi qulluqçuların müayinəsi və xəstələrin müalicəsi ilə savadlı həkimlərimiz, yüksək kvalifikasiyalı personalımız məşğul olurlar. Hər birimiz öz növbəmizdə müalicə alan şəxsi heyətə peşəkar tibbi xidmət göstərərək, onlara səmimi və qayğıkeş yanaşır, doğma münasibət bəsləyirik. Vətən və həkimlik borcumuzla yanaşı, insani borclarımızı da müqəddəs sayırıq".



Laboratoriya bölməsinin rəisi tibb xidməti leytenantı Taleh Məmmədov qeyd etdi ki, hərbi hospitalda ən yüksək standartlara cavab verən laboratoriya bölməsi də fəaliyyət göstərir. Talehin bildirdiyinə görə burada müasir laborator müayinə üsulları tətbiq edilərək klinik, biokimyəvi və mikrobioloji analizlər aparılır. Şəxsi heyətin sağlamlığı uğrunda qarşıda duran hər hansı tapşırığı yerinə yetirmək üçün bütün lazımi şərait yaradılıb.

Bundan başqa həmsöhbət olduğumuz polkovnik-leytenant İntiqam Nəsibov, mayor Akif Ələkbərov, tibb xidməti kapitanları Ramiz Xanmədov, Ürfan Mehdizadə və digər hərbi tibb personalı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı nəticəsində tibb müəssisələrində yaradılan şəraitdən məmnunluqlarını ifadə etdilər, hərbi qulluqçular isə öz növbələrində həkimləri bayram münasibətilə təbrik edərək onların peşəkarlığından, müayinə və müalicə prosesindən razı qaldıqlarını bildirdilər.

**Baş leytenantlar
İbrahim MƏMMƏDBƏYOV,
Oruc MUSTAFAYEV
"Azərbaycan Ordusu"**

# Hərbi Prokurorluğun Ulu Öndərin 100 illik yubileyi münasibətilə keçirdiyi silsilə tədbirlər davam edir



*Hərbi Prokurorluğun Ulu Öndərin anadan olmasının 100 illik yubileyi münasibətilə keçirdiyi silsilə tədbirlər davam edir.*

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, "N" hərbi hissəsində Müdafiə Nazirliyi ilə birgə keçirilən tədbirdən əvvəl Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Mərasimdə çıxış edən Hərbi prokurorun böyük köməkçisi, mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev və Hərbi Prokurorluğun İstintaq idarəsinin rəisi, ədliyyə polkovniki Bəhruz Əhmədov əvvəlcə Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamlarını şəxsi heyətə çatdırıb. Bundan sonra həmin şəxslər, eləcə də hərbçilər müstəqillik yolumuzu və firavan gələcəyimizi işıqlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.



Çıxışçılar, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə zamanın tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ilə yaxın müddət ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların əldə olunmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın əzmkarlığından danışıblar.



Çıxışlarda, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi qələbə xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, o dövrdə prokurorluğun, o cümlədən hərbi prokurorluğun Silahlı Qüvvələrlə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, qürur dolu 44 günün unudulmaz təəssüratları xatırlanıb.

# Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə qəbul olunmuş əfv sərəncamı humanist siyasətin növbəti təcəssümüdür

Bütün dövrlərdə ümumbəşəri humanist dəyərlərin bərqərar olmasına və insan hüquqlarının təminatına xidmət edən əfv və amnistiya aktları cəmiyyətdə olduqca yüksək qiymətləndirilib. Demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarının müdafiəsinə böyük önəm verən Azərbaycan dövləti cəmiyyətdə humanizm ənənələrinin təşəkkül tapmasına və möhkəmlənməsinə hər zaman həssaslıqla yanaşmışdır. Hər bir fərdin mənafeyinin əsas götürüldüyü hüquqi dövlət quruculuğu prinsiplərinə sadiqliyin əyani təcəssümü olaraq Azərbaycan Respublikasında cinayət törətməyə görə müxtəlif cəzalara məhkum edilmiş şəxslərin əfv edilməsi, bağışlanması artıq bir ənənəyə çevrilmişdir. Bu da respublikamızın humanizm prinsipləri əsasında inkişaf yolu seçdiyini bir daha nümayiş etdirir, xalqın dövlətə, ədalətə inamını artırır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyata keçirdiyi humanist siyasətin mühüm istiqamətlərindən biri də cinayət törətmiş və əməlindən peşman olmuş şəxslərin əfv edilməsi olmuşdur. Azərbaycan Prezidenti yanında Əfv Komissiyasının yaradılması və əfvetmə institutunun bərpa olunması da Ulu Öndərin bu yöndə müstəsna xidmətlərindəndir. Ulu Öndər Heydər Əliyevin 1995-2003-cü illərdə imzaladığı 32 əfv aktı ilə üç mindən artıq məhkum azadlığa buraxılmış, minlərlə məhkum müxtəlif cəzalardan azad edilmiş və ya cəzaları yüngülləşdirilmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bəşəri amallara, qanunçuluq və ədalət ideallarına söykənən zəngin mənəvi irsinə sadiqlik nümayiş etdirən möhtərəm Prezident İlham Əliyev hər zaman humanizm, mərhəmət və insanpərvərlik ənənələrini davam etdirərək bayram ərəfəsində, əlamətdar tarixi günlərdə əfv sərəncamları imzalayır. Dövlət başçısı bu təşəbbüsləri ilə törətdiyi əməldən səmimi peşmanlıq hissi keçirən təqsirkar şəxslərin islah olunaraq düz yola qayıtmaları, onların cəzaçəkmə müəssisəsindən çıxdıqdan sonra layiqli vətəndaş kimi azad cəmiyyətə qovuşmaları, bir daha cinayət əməli törətməmələri üçün xeyirxah addımlar atır, minlərlə məhkuma yenidən azadlıq bəxş edir. Bu kimi addımlar həmin şəxslərin və onların ailə üzvlərinin hədsiz sevincinə səbəb olmaqla yanaşı, onların dövlətimizin rifahına və gələcək inkişafına öz töhfələrini verməyə stimul yaradır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, əfvetmə fərdi qaydada müəyyən edilməmiş şəxs barəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Cinayət törətməyə görə məhkum olunmuş şəxs əfvetmə aktı ilə cəzanın qalan hissəsini çəkməkdən azad edilə, yaxud ona təyin olunmuş cəzanın müddəti azaldıla və ya belə şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər. Ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında iyirmi beş ildən çox olmayan müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənə bilər. Əfvetmə aktı ilə cəzasını çəkmiş şəxsin məhkumluğu götürülə bilər.

Möhtərəm Prezident İlham Əliyevin 20 ilə yaxın müddətdə konstitusion səlahiyyətlərindən istifadə edərək imzaladığı 36 əfvetmə aktı on minlərlə insanı fərəhləndirmiş, ailələrinə sevinc bəxş etmişdir. Dövlət başçısının əfvlə bağlı imzaladığı sərəncamlar Azərbaycanda insan hüquqlarının etibarlı təminatının və demokratikləşməyə xidmət edən strateji siyasi kursun layiqincə davam etdirilməsinin göstəricisidir.

Cənab Prezidentin rəhbərliyi altında həyata keçirilən humanist siyasətin növbəti təzahürü ölkəmizin tarixində əlamətdar hadisə olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə qəbul olunmuş 08 may 2023-cü il tarixli Əfv Sərəncamı olmuşdur. Xüsusi qeyd etmək lazımdır ki, həmin Sərəncam müstəqillik tariximizin ən böyük əfv aktıdır. Ümumilikdə 801 məhkumu əhatə edən Sərəncamla 463 nəfər azadlıqdan məhrumetmə cəzasından azad edilmiş, 220 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılmış, həmçinin azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş 118 nəfər əfv olunmuşdur. Onlardan 88 nəfəri cərimə, 18 nəfər azadlığın məhdudlaşdırılması, digərləri isə islah və başqa cəzalardan azad edilmişlər.

Bir tərəfdən demokratik hüquqi dövlət quruculuğu istiqamətində fundamental islahatların həyata keçirilməsində misilsiz xidmətlər göstərmiş, insan hüquq və azadlıqlarının qorunmasına xüsusi önəm vermiş Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması, digər tərəfdən isə əvvəlki əfv aktlarına nisbətən daha çox şəxsi əhatə etməsi baxımından sözügedən akt xüsusi əhəmiyyət kəsb edir və çox sayda ailənin böyük sevincinə səbəb olmuşdur.

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ərəfəsində Əfv Sərəncamının imzalanması Ümummilli Liderin müdrik, humanist siyasətinə, zəngin mənəvi irsinə verilən böyük qiymət, onun bu sahədə qoyduğu ənənənin davamıdır. "Heydər Əliyev İli"ndə dövlət başçısı İlham Əliyevin həmin sərəncamla cinayət törətmiş şəxsləri əfv edərək çoxsaylı ailələri sevindirməsi ölkəmizdə insan amilinə verilən yüksək dəyərin göstəricisidir. Möhtərəm Prezidentin imzaladığı Əfv Sərəncamı dövlətin humanist siyasətinə, ölkəmizdə insan hüquqlarının etibarlı müdafiəsinə və haqq-ədalətə cəmiyyətdə olan inamı daha da artırmışdır.

Eyni zamanda, əfv aktlarının stimullaşdırıcı, çəkindirici təsirlərini də unutmamaq lazımdır. Belə aktlar məhkumların törətdikləri cinayət əməllərinə görə peşmanlıq hissi keçirməklə islah meyillərini gücləndirir, həmin şəxslərdə cəzadan azad edildikdən sonra cəmiyyət üçün faydalı şəxsiyyətə çevriləcəklərinə inam, qanunauyğun davranış sərgiləməyə motivasiya yaradır, onları pis əməllərdən çəkindirir.

Mərhəmət, bağışlamaq həmişə ən ali keyfiyyətlər kimi qiymətləndirilib və əfv etmək böyük, müdrik insanlara, dövlət xadimlərinə xas olan yüksək keyfiyyətdir. Humanist Prezident, xeyirxah dövlət başçısı İlham Əliyev tərəfindən imzalanan və çox sayda şəxsləri əhatə edən sözügedən əfvetmə aktı da xalqımızın həmrəyliyinə müsbət təsir edəcək mühüm addımlardan biri olmaqla cəmiyyətimizə böyük töhfələr verəcəkdir.

**Samir QARABƏYLİ**
**Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin prokuroru, ədliyyə polkovnik-leytenantı, hüquq üzrə magistr**

# Ekspert: Erməni vəhşiliyini gözardı edənlər də məsuliyyət daşıyırlar

Xocavənd, Şuşa və Ağdamda aşkarlanmış kütləvi məzarlıqlar azərbaycanlılara qarşı həyata keçirilmiş erməni vəhşiliyinin növbəti təzahürüdür.

Bu barədə AZƏRTAC-a açıqlamasında siyasi ekspert Vüsalə Hüseynli bildirib.

O qeyd edib ki, Ağdam rayonundan öncə də bu kimi məzarlıqların aşkarlanması hallarına rast gəlib, lakin, təəssüf ki, bu faktlarla bağlı beynəlxalq ictimaiyyətin hər hansı ciddi reaksiyasını görmürük. Bu isə ona işarə edir ki, belə vəhşilikləri gözardı edənlər, ermənilərdən geosiyasi alət kimi faydalananlar da məsuliyyət daşıyırlar.

"Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş və taleyinə aydınlıq gətirilməyən vətəndaşlarımızla bağlı araşdırma işləri davam etsə də, bu istiqamətdə hələ ki, konkretlik əldə edə bilməmişik. Bu proses çərçivəsində erməni vəhşiliyinin qurbanı olan vətəndaşlarımızın kütləvi məzarlıqlarının ard-arda aşkarlanması bir çox suallara işıq salmış olur. Bu mənada, tapılan məzarlıqlarla bağlı beynəlxalq sistemdə işlərimizi davam etdirməliyik", - deyə ekspert vurğulayıb.

# Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsi yad edilib





*İyunun 18-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun torpaqlarımızın müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksəlməsinin ildönümünə həsr olunmuş anım mərasimləri keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimlərdə hərbi qulluqçular igidimizin məzarını ziyarət edib, üzərinə əklil və gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Həmçinin Milli Qəhrəmanın Tərtər şəhərində olan barelyefi də ziyarət olunub, güllər düzülüb.



Anma mərasimlərində çıxış edənlər Azərbaycanın tarixən öz qəhrəmanları ilə seçildiyini qeyd edib, M.İbrahimovun göstərdiyi şücaət və igidlik nümunələrindən danışıblar. Vətən yolunda canından keçərək gənclərə örnək olacaq bir addım atan qəhrəmanımızın vətənpərvərlik və mübarizlik hissinin yüksək olduğu diqqətə çatdırılıb.

Qeyd olunub ki, M.İbrahimovun göstərdiyi rəşadət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib. M.İbrahimov ölümündən sonra dövlətimizin başçısının müvafiq Sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

# Şəhidlərin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib

Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Elçin Tağıyev və Elvin Şükürlünün xatirəsinə həsr olunan anım mərasimləri keçirilib.

Müdafiə Nazirliyi və ictimaiyyətin nümayəndələrinin, rayon icra hakimiyyətlərinin əməkdaşlarının, şəhidlərin ailə üzvləri və yaxınlarının, döyüş yoldaşlarının, hərbi qulluqçular və kursantların, eləcə də digər qonaqların iştirak etdiyi mərasimlərdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimlərdə şəhidlərimizin məzarları üzərinə əklillər qoyulub, tər çiçəklər düzülüb, ruhlarına dualar oxunub və ehsan süfrələri açılıb.

Çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi qələbədən, bu qələbənin qazanılmasında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar, şəhidlərimizin şərəfli ömür və döyüş yolundan danışıblar.

Şəhidlərin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Anım mərasimlərində şəhidlərimizə həsr olunan şeirlər, vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər səsləndirilib.





# Xəbərlər: hadisələr, faktlar

## Küveyt Türkiyədən “Bayraktar” PUA-ları alacaq



Küveyt "Bayraktar TB2" pilotsuz uçan zərbə aparatlarının tədarükünə dair Türkiyə ilə müqavilə imzalayıb.

Küveytin müdafiə nazirliyi sifariş olunan PUA-ların sayını göstərməsə də, müqavilənin dəyərinin 367 milyon dollar təşkil etdiyini bildirib.

Beləliklə, Küveyt "Bayraktar" PUA-ları almaq üçün müqavilə imzalayan 28-ci ölkə olub.

2019-cu ilin iyulunda "Bayraktar TB2" Küveytdə bir sıra sınaqlardan keçib. Aparat yüksək hərarət, külək və qum fırtınası kimi mürəkkəb iqlim şəraitində fasiləsiz olaraq 23 saat uçub. O, 650 kiloqram faydalı yük götürə və saatda 130 kilometrədək sürət yığa bilir.

## İtaliya Hərbi Hava Qüvvələrinin 100 illiyi ilə əlaqədar aviaşou keçirilib



Romadakı "Mario De Bernardi" aerodromunda İtaliya Hərbi Hava Qüvvələrinin 100 illiyinə həsr olunmuş aviaşou keçirilib.

Milli aerobatika komandası paytaxt səmasında ənənəvi manevrlər yerinə yetirib. Aviaşou tamaşaçılar tərəfindən maraqla izlənilib.

Tamaşaçılar, həmçinin 40-dan çox təyyarənin, o cümlədən "F-35", "Eurofighter" və "T-346" tipli təyyarələrin və müxtəlif tematik sahələrin, eləcə də texnologiya, robototexnika və kibertəhlükəsizlik həllərinin nümayiş olunduğu sərgini ziyarət etmək, simulyatorlar və təlim sistemləri sayəsində uçuş həyəcanını yaşamaq imkanı əldə ediblər.

Tədbirin bağlanış mərasimində İtaliya Prezidenti Sercio Mattarella iştirak edib.

Bildirilib ki, Hərbi Hava Qüvvələrinin 100 illiyi ilə əlaqədar il ərzində çoxsaylı tədbirlər təşkil olunacaq.

## KXDR nüvə qüvvələri yaratmaq planlarını açıqlayıb



KXDR öz nüvə potensialını artırmaq üçün səylərini davam etdirmək, təhdid yaranacağı təqdirdə isə "nüvə silahına nüvə silahı ilə cavab vermək" niyyətindədir.

Bu barədə Koreya Əmək Partiyası Mərkəzi Komitəsinin (MK) Siyasi Bürosunun təşəbbüsü ilə keçirilən səkkizinci genişləndirilmiş plenar iclasın yekunlarına dair məlumatda bildirilib. Plenar iclas iyunun 16-18-də ölkənin lideri Kim Çen Inın iştirakı ilə keçirilib.

Vurğulanıb ki, dövlətin müdafiə sənayesi Mərkəzi Komitənin nüvə silahlarının inkişaf etdirilməsi və nüvə qüvvələrinin yaradılmasına dair müəyyənləşdirdiyi istiqaməti saxlamalıdır.

## Niderland və Danimarka yayda Ukrayna Silahlı Qüvvələrinin pilotları üçün təlimlərə başlayacaq



Niderland və Danimarka bu yay ukraynalı pilotlara "F-16" döyüş təyyarələrindən istifadə etmək üçün təlimlər keçəcək.

Bunu NATO-nun baş katibi Yens Stoltenberq Brüsseldə NATO-ya üzv ölkələrin müdafiə nazirlərinin görüşündən sonra keçirilən mətbuat konfransında deyib.

"Mən Ukrayna üçün yeni silahların verilməsi və təlim barədə açıqlamaları, o cümlədən bu yay "F-16"-nın istifadəsi üzrə ukraynalı pilotların təliminə başlamaq üçün Niderland və Danimarkanın təşəbbüsünü alqışlayıram", - o deyib.

Stoltenberq qırıcıların Kiyevə nə vaxt təhvil veriləcəyi ilə bağlı suala belə cavab verib: "Qırıcının təhvil-təsliminin nə vaxt baş tutacağını deyə bilmərəm. Bu, pilotların nə vaxt təlim keçəcəyindən, eləcə də Ukraynanın ehtiyaclarını təhlil etməyimizdən asılı olacaq".

**AZƏRTAC-ın materialları əsasında**

Tibb xidməti

# Sağlıq varlıqdan irəlidir

Sağlamlıq hər bir insanın diqqət mərkəzində olmalı məsələdir və həyat keyfiyyətini təyin edən vacib amil sayılır. Azərbaycan Ordusunda da ən çox diqqət yetirilən sahələrdən biri məhz şəxsi heyətin sağlamlığını qoruyan hərbi səhiyyədir. Hərbi hospitallarda, poliklinikalarda və tibb məntəqələrində həkimlərimiz Vətənə xidmət edən hərbi qulluqçularımızın səhhətinin yüksək səviyyədə qorunub saxlanılması üçün çalışırlar. "N" hərbi hissəsində həkim və feldşerlərlə tanış olmaq, əsgərlərimizin səhhəti ilə maraqlanmaq məqsədilə tibb məntəqəsinə üz tutduq.

Məntəqəyə daxil olarkən təmiz, səliqə-sahmanlı otaqlar və gülərüz tibb personalı ilə qarşılaşdıq. Qəbul otağında həkim yoxlanışına gələnlərin müayinə edilməsinin şahidi olduq. Tələb olunan profilaktik tədbirləri görən gizir Amil Məmmədzadə əsgərin səhhəti ilə bağlı şikayətlərini qeyd etdi və ilk olaraq qızdırmasını ölçdü. Daha sonra əsgər Mətləb Hüseynovu müayinə edərək ambulator tibbi müalicə təyin etdi. Prosedur bitdikdən sonra feldşerlə söhbətləşdim. Öyrəndim ki, gizir Amil Məmmədzadə 1990-cı il avqustun 15-də Kəlbəcər rayonunun Çaykənd kəndində anadan olub. Kəlbəcər işğal olunduqdan sonra ailəsi ilə birlikdə



Qəbələ rayonuna köçməli olub. "Birinci Qarabağ müharibəsi hər azərbaycanlının taleyinə ciddi təsir göstərmişdir. Bir milyondan çox soydaşımız dədə-baba yurdlarından məcburi köçkün vəziyyətinə düşüb. Vətənimiz erməni işğalçılarının vandallığı ilə üz-üzə qalıb. Düşmən millətimizə qarşı etnik təmizləmə siyasəti aparmış, əzəli torpaqlarımızı işğal etmişdir, həmçinin doğma Qarabağımızın təbii sərvətlərini də öz malı kimi qələmə vermişdi. Doğulduğum torpaqlardan didərgin düşdüyüm üçün intiqam hissi ilə böyümüşəm. Bilirdim ki, gün gələcək, Azərbaycan Ordusu şəhidlərimizin qisasını nankor ermənilərdən alacaq. Həm də əmin idim ki, qalib ordunun sıralarında mən də olacağam. Atama "evimizə qayıtdıq" xəbərini verəcəyəm.

Beləliklə, 2020-ci il sentyabrın 27-də erməni silahlı birləşmələri yenidən genişmiqyaslı təxribat törədərək ordumuzun mövqelərini və mülki yaşayış məntəqələrini atəşə tutdu. Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu bütün cəbhə boyu əks-hücum əməliyyatına keçdi. Cəmi 44 gün ərzində düşmənə sarsıdıcı zərbələr endirildi. Onların uzun illər yaratdığı hərbi istehkamları, maneələri, qurduqları müdafiə sədləri darmadağın edildi. Azərbaycan xalqı birlik nümunəsi göstərərək bütün dünyaya göstərdi ki, biz işğalla barışmaq fikrində deyilik. Nəhayət ki, 30 ilə yaxın müddətdən sonra yüz minlərlə həmyerlimiz öz doğma yurdlarına qayıtmaq imkanı qazanıb. İlkin mərhələlər icra edilib. Böyük qayıdış başlanıb və bu xəbər hər bir azərbaycanlını sevindirir", - deyə bildirdi.

Suqovuşan kəndinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik və mərdlik göstərdiyi üçün gizir Məmmədzadə Amil Zahid oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Tibb məntəqəsində həkim personalı, xəstələr və burada gördüyümüz şərait bir daha əmin etdi ki, hərbi qulluqçuların sağlamlığı əmin əllərdədir. Vətənin keşiyində durmaq nə qədər şərəflidirsə, Vətən müdafiəçilərinin sağlamlığının keşiyində durmaq da bir o qədər şərəflidir.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Aerobika gimnastlarımız Misirdə üç qızıl medal qazanıblar



Aerobika gimnastikası üzrə Azərbaycan yığmasının üzvləri Misirin paytaxtı Qahirədə keçirilən "Pharaohs Cup" beynəlxalq turnirində üç qızıl medal qazanıblar.

Böyüklər arasında Vladimir Dolmatov və Mədinə Mustafayeva qarışıq cütlükdə, Leyla Bejanova, Arzu Ağayeva və Xədicə Quliyeva üçlük proqramında birinci yeri tutublar.

Yeniyetmələrin yarışında isə Dilarə Qurbanova, Sara Əlixanlı, Sənəm Kazımova (üçlük proqramı) qızıl medala yiyələniblər.

## Dünya çempionumuz Ülvi Məmmədov karate üzrə beynəlxalq turnirin qalibi olub



İyunun 17-18-də Gürcüstanın Batumi şəhərində karate üzrə açıq beynəlxalq turnir keçirilib. On ölkənin iştirak etdiyi beynəlxalq turnirdə milli komandamızın idmançıları da iştirak ediblər.

İkinci dan qara kəmər sahibi, dünya çempionu tituluna sahib olan idmançımız - 84 kiloqram çəki dərəcəsində mübarizə aparan Ülvi Məmmədov keçirdiyi iki döyüşün hər birini qələbə ilə başa vuraraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, qələbəsini Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr edib.

Xatırladaq ki, Ülvi Məmmədov 2021-ci ilin oktyabrında Polşanın Katovis şəhərində 30-dan çox ölkənin iştirakı ilə keçirilən fudokan üzrə 25-ci Avropa çempionatında komanda döyüşlərində bürünc, 2021-ci ilin noyabrında Türkiyədə şotokan karate üzrə dünya çempionatında və 2022-ci ildə Qırğızıstanda keçirilən Açıq Asiya çempionatında gümüş medal qazanıb. Ötən il Çexiyanın Pardubitse şəhərində Dünya Şotokan Federasiyasının təşkilatçılığı ilə keçirilən 12-ci dünya çempionatında isə Ü.Məmmədov dünya çempionu, 2023-cü ilin aprelin 28-dən 30-dək Bolqarıstanın Kranevo şəhərində Avropa çempionu titullarına yiyələnib.

## U-17 Avropa çempionatında güləşçilərimiz 4 qızıl və 3 bürünc medal əldə ediblər



Albaniyanın paytaxtı Tiranada güləş üzrə U-17 Avropa çempionatına yekun vurulub.

Sərbəst güləş üzrə millimizin 10 üzvündən 7-si fəxri kürsüyə qalxıb.

Dörd qızıl və üç bürünc medal əldə edən yığmamız medalların əyarına görə, bütün ölkələri qabaqlayıb. Müqayisə üçün qeyd edək ki, ən yaxın izləyicimiz olan Gürcüstan 2 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıb. Millimiz xal sistemi üzrə sıralamada isə 155 xalla ikinci yeri tutub.

Cəfər Cəfərov (45 kq), Hacı Kərimov (55 kq), Camal Abbasov (60 kq), Yusif Dursunov (110 kq), Seyhun Əlizadə (51 kq), Mirzəağa Axundov (65 kq) və İsmayıl Rəhimli (71 kq) komandamıza medal qazandırıblar.

## Azərbaycan atleti Estoniyada keçirilən turnirdə gümüş medal qazanıb



Azərbaycan atleti Anna Skidan Estoniyanın Yıhvi şəhərində Dünya Kontinental Turu - Bürünc səviyyədə keçirilən Heino Lipp memorialında ikinci yeri tutub.

31 yaşlı idmançı beynəlxalq yarışda çəkic-atma növündə gümüş medal qazanıb. O, 68,67 metr göstərici ilə buna nail olub.

Anna Skidan yalnız Ukrayna atleti İrina Klimetsdən geri qalıb.

**AZƏRTAC-ın materialları əsasında**

Krossvord, skanvord, çaynvord, kriptoqram

**Ölkələr və paytaxtlar**
*(cavablar sodan-sağa spiralvari yazılır)*

**1. Suriya - ...**
**2. Astana - ...**
**3. Oslo - ...**
**4. Pekin - ...**
**5. Katmandu - ...**
**6. Peru - ...**
**7. Buenos Ayres - ...**
**8. Niderland - ...**
**9. Uruqvay - ...**
**10. Kanada - ...**
**11. Bakı - ...**
**12. Niger - ...**
**13. Afina - ...**
**14. Manaqua - ...**
**15. Fil Dişi Sahili - ...**
**16. Kipr - ...**
**17. Türkiyə - ...**
**18. Vyana - ...**
**19. Luanda - ...**
**20. Paraqvay - ...**
**21. Qaraqalpaq MR - ...**
**22. Paramaribo - ...**
**23. Oman - ...**
**24. Banqkok - ...**
**25. Hindistan - ...**
**26. Pakistan - ...**
**27. Seneqal - ...**
**28. İslandiya - ...**
**29. Venesuela - ...**
**30. İsveç - ...**
**31. İspaniya - ...**
**32. Tacikistan - ...**
**33. Təl-...**
**34. Hanoy - ...**
**35. Lesoto - ...**
**36. Kiyev - ...**
**37. Kanberra - ...**
**38. Berlin - ...**
**39. İordaniya - ...**



**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 312
Nüsxə 4725